# Evtanaziya Azərbaycan Respublikasının Cinayət Məcəlləsində

**Ələddin MƏLİKOV**

**(Fəlsəfə üzrə elmlər doktoru, dosent)**

**Abstract**

Məqalədə evtanaziyanın mahiyyəti, tarixi mənbələri, bir sıra ölkələrdə qanunvericilikdəki keyfiyyəti və Azərbaycan Respublikasının Cinayət məcəlləsinə xüsusilə evtanaziya maddəsinin salınması və mövcud problem və prespektivlər araşdırılmışdır.

ARCM-də həyat və sağlamlıq əleyhinə olan cinayətlərdə təhrikçilik və ya iştirakçılığa görə məsuliyyətin kimin üzərinə düşməsi, ağırlaşdırıcı və yüngülləşdirici halların göstərilməməsi və digər hüquqi normalar həmçinin araşdırılmışdır.

Evtanaziyanın dini, milli və mənəvi dəyərləri silkələyən bir predmet olduğunu nəzərə alıb, buna yol açacaq amillərə hüquqi imkan yaratmamaq qaənaətilə birgə, ARCM-nin bu maddəsinə dəyişikliklər edilməsi, hüquqi təklif kimi göstərilmişdir.

**Açar sözlər:**

Azərbaycan Respublikası Cinayət Məcəlləsi, evtanaziya, insan həyatı, sağlamlıq, Fransis Bekon, qəsdən adam öldürmə, şəfqətli ölüm, iştirakçılıq, məsuliyyətin diferensiasiyası.

**“Evtanaziya” nədir?**

“Evtanaziya” yunan mənşəli söz olub, hərfən mənası: eu- yaxşı və thanatos- ölüm deməkdir. Terminoloji mənası isə, xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlə tezləşdirmə və ya onun həyatının davam etməsinə kömək edən süni tədbirləri dayandırmaqdır.[1]

Müasir hüquqda “Evtanaziya” həyat və sağlasmlıq əleyhinə olan cinayətlərdən sayılır.

**Azərbaycan Respublikasının cinayət məcəlləsində “Evtanaziya”**

01.09.2000-ci ildən qüvvəyə minmiş Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsində xeyli dəyişiklilər edildi və daha da təkmilləşdirildi.

Cinayət Məcəlləsinin həyat və sağlamlıq əleyhinə olan cinayətlərə dair XVIII fəslinə 135-ci maddə əlavə edildi.

**Maddə 135. Evtanaziya**

“Evtanaziya, yəni xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlə tezləşdirmə və ya onun həyatının davam etməsinə kömək edən süni tədbirləri dayandırma.

İki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır”.[2]

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin şərhində evtanaziya (135-ci maddə) cinayətin obyekti şəxsiyyətin həyatının təhlükəsizliyi ilə bağlı olan ictimai münasibətlərin olması (sağalmaz və ağır xəstələr) nəzərdə tutulur.[3]

**AR Cinayət Məcəlləsinin 135-ci maddənin şərhi və tətbiqi:**

**Obyekt:** Sağalmaz xəstəliyi olan pasientin həyatı;

**Obyektiv cəhəti:** Xəstənin xahişi ilə onun ölümünün:

1- Hər hansı vasitə,

---

[1] - Quliyev Aqşin, Hüquq ensiklopediyası, Bakı, qanun nəşriyatı, 2007, səh 347
[2] - Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Bakı, qanun nəşriyatı, 2006, səh 124- 125
[3] - Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası, Bakı, 2001, səh 220- 223

2- Yaxud hərəkətlə tezləşdirmə və ya,
3- Onun həyatının davam etməsinə kömək edən süni tədbirləri dayandırmaq.

**Subyekti:** 16 yaşına çatmış anlaqlı hər hansı şəxs, qohum və tibb işçiləri;

**Subyektiv cəhəti:** Qəsdən törədilməsi və ya yanakı və düzünə qəsd;

**Məqsəd:** Ölümün baş tutması;

**Motivi:** Təqsirkarın zərər çəkmiş şəxsə rəhmi gəlməsi;

**Digər əlamətlər:**

1- Xahiş yazılı və ya şifahi olmalı;
2- Könüllü olmalı;
3- Hər hansı vasitə- güclü təsir edən zəhər verilməsi, zəhərli iynə vurulması, ölümə səbəb olan xəsarətlər yetirilməsi.

“Qəsdən adamöldürmə işləri üzrə məhkəmə təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 3 may 1993-cü il tarixli 3 saylı qərarının 19- cu bəndində qeyd edilir ki, qəsdən adam öldürməyə görə cəza təyin edərkən, məhkəmələr işin bütün hallarının məcmusunu, o cümlədən qəsdin məzmununu, motiv və məqsədini, üsulunu, cinayətin edilmə mərhələsini və şəraitini, baş vermiş nəticələrin ağırlığını, təqsirkarın şəxsiyyətini, onu müsbət və yaxud mənfi xarakterizə edən məlumatları, onun əməyə münasibətini, məişətdə davranışını, məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran halları nəzərə almalıdırlar. Eyni zamanda zərərçəkmişin şəxsiyyətinə aid məlumatlar, onun təqsirkarla qarşılıqlı münasibətləri, həmçinin hadisə vaxtı davranışı tədqiq olunmalıdır.[4]

**AR Cinayət Məcəlləsinin 135-ci maddəsində göstərilən evtanaziyanın tarixi mənbəyi**

Tarixə nəzər saldıqda evtanaziyanın bir təlim kimi XVIII əsrdə ingilis filosofu F.Bekon[5] tərəfindən irəli sürüldüyü müşahidə edilir.

---

[4] - Azərbaycan Respublikasının Cinayət məcəlləsinin kommentariyası, prof. F.Y.Səməndərovun redaktəsi ilə, müəlliflər kollektivi, Bakı, 2001, 83

[5] - Frensis Bekon (1561- 1626). İngilis filosofu. “Yeni Orqanon” adlı məşhur traktatın müəllifidir.

F.Bekonun fikrincə, evtanaziya can verməklə müşahidə edilməyən yüngül və ağrısız ölümdür. Sonralar bu söz sağalmayan xəstəliklərdən əziyyət çəkən xəstələrin öz arzuları ilə həyata keçirilməsi kimi əsaslandırıldı.

XX əsrin 90-cı illərində ABŞ-da Kiriş Kordanın rəhbərlik etdiyi kilsə evtanaziya fəaliyyətinə başlamışdır. Onların fəaliyyəti dörd prinsip əsasında: suisid, sodomiya, hannibalizm və mayalanma əleyhinə darmanlardan istifadə etməklə bu problemin həll edilməsinin mümkün olduğunu gəstərmək idi.

Özlərini kilsə evtanaziyasının yaradıcısı və davamçıları adlandıran kilsə təlimçiləri, dilənçilik, müharibə və zorakarlığın olmaması üçün əhalinin artım tempinin azaldılmasnda evtanaziyanı əsas prinsip kimi götürmüşdür.

Onlara görə, evtanaziya sağalmayan xəstəliklərə görə müalicəsi mümkün olmayan və bu əziyyətdən qurtarmaq üçün pasientin öz xahişi ilə ölümünə razılıq verməsidir. Xarici ölkələrdə evtanaziyaya fərdi münasibət bəslənilir. Avropa ölkələri qanunvericilikdə evtanaziya ilə bağlı xeyli dəyişikliklər etmişlər. Nümunə üçün, Belçikada evtanaziyanın həyata keçirilməsi üçün hər bir halda pasientin könüllü düşünülmüş ölüm qərarına razılıq verməsi məcburi hesab edilir. Əlbəttə bu halda həkim və pasientdə inam olmalıdır ki, başqa çıxış yolu yoxdur və yeganə yol ancaq budur. Bu faktı ikinci bir həkim də təsdiq etməlidir. Nəticədə xəstə onun ölümü üçün tətbiq edilən üsulun tibbi nöqteyi- nəzərdən qəbul oluna bilən olması barədə məlumatlandırılmalıdır. Niderlandiyada bu təcrübədən istifadə edir. 2002- ci ildə Belçikada və Niderlandda evtanaziyaya, qanuni icazə verilmiş və cinayət məsuliyyətinə cəlb etmək aradan götürülmüşdür. Bruseldə həkimlər üçün evtanaziyaya dair xüsusi kurslar təşkil olunur.

**AR Cinayət Məcəlləsinin 135-ci maddəsinin təhlili və qanunvericilikdə yaranan problemlər**

Evtanaziyanın yaranma tarixi və mahiyyətini araşdırdıqda onun ictimai təhlükəlilik dərəcəsi ilə yanaşı ifrat formada mənəviyyatsızlıq və vəhşiliklə bağlı olduğunuda müşahidə edirik.

ARCM- nin 135-ci maddəsini müşahidə edərkən, belə nəticəyə gəlmək olur ki, maddənin müzakirəsində baş vermiş cinayətin dinamikası, latent cinayətlərə aid

olub-olmaması, tətbiqi mexanizminin olmaması və onun mahiyyətini dəqiqləşdirilmədən qəbul olunmuşdur.

Bu maddə fikrimcə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə tələsik qəbul edilmiş və bu səbəbdən konkret olaraq, onun tətbiqi mexanizmi yoxdur.

135-ci maddədə qeyd edilənlərlə yanaşı, cinayətin aləti (zəhər, zəhərli iynə, narkotik və s.) cinayətkarın hərəkəti və ya hərəkətsizliyi, ölümün səbəbinin həmin zəhərli maddə, zəhərli iynə, narkotikin hansı üsulla qəbul edilməsi nəticəsində baş verməsi, müqəssirin cinayəti törədərkən istifadə etdiyi zəhərli maddə, narkotik və s. barədə tibbi sahədə biliyi və ya məlumatı olub- olmaması, zərərçəkmişin narkoman, alkoqol və ya psixi xəstə olub- olmaması, motivinin pul, mənzil, ev, bağ, avtomaşın və digər əmlakı əldə etməyə yönəlib- yönəlməməsi və s. tam aydınlaşdırılmalıdır.

ARCM- nin 135-ci maddəsində evtanaziya- "qəsdən adam öldürmə", ağırlaşdırıcı forma kimi qanunda göstərilmək əvəzinə, sanki "şəfqətli ölüm" kimi xarakterizə edilib və tam yüngülləşdirici növ kimi qəbul edilmişdir. Evtanaziya cinayət tərkibinə görə çox mürəkkəbdir. Törədilmə üsulu, motiv və məqsədi, cinayətin subyektinin şəxsiyyəti və s. qəsdən adam öldürmə maddəsini əvəz etməyə əsas verir.

Tibbi nöqteyi-nəzərdən götürdükdə ölümün fizioloji və patoloji formaları vardır: Fizioloji ölümdə insanın ölümü təbii proses olub həyat fəaliyyətinin dayanması ilə başa çatır və bu ölüm cinayət hesab edilmir, yəni insan ona bəxş edilən ömrü yaşayır. Patoloji ölüm isə xəstəlik və zorakı hərəkətlərlə bağlı olub motiv və məqsədindən asılı olaraq, cinayət- hüquqi əhəmiyyət kəsb edir.[6]

ARCM-də yaxud ARCM-nin Kommentariyasında xəstəliyin hansı mərhələsində evtanaziyanın icra olunması və s. faktorları qeyd edilməmişdir. Belə ki, tibbi nöqteyi- nəzərdən xəstəliyin təsnifatı onun etiologiyasından (səbəb və əmələ gəlmə şəraitindən), patogenez mərhələsindən (xəstəliyin inkişafı, orqanizmə vurduğu zədə və s.) xəstəliyin mahiyyətindən (psixi, ictimai faktorlar), xəstəliyin mərhələlərindən: latent (qızıl dövrü), prodromal (xəbərdarlıq dövrü), xəstəliyin yüksək inkişaf

---

[6] - Hacıyev, C.N, Əliyev, R.Y, Təxirəsalınmaz tibbi yardım, Bakı, Təbib nəşriyyatı, 2000, səh 26

mərhələsi (bütünlüklə üzə çıxması), həlledici dövrü (bu dövr ya sağalma, ya ölüm), ölüm (kliniki və ya bioloji) asılıdır.

Yuxarıda qeyd olunanlara əsasən, qanunvericilikdə evtanaziya cinayətini törədən şəxsin ağırlaşdırıcı və ya yüngülləşdirici amillərdən istifadəsi üçün belə olsa, ölümə səbəb olan ağır xəstəliklərin və xəsarətlərin yetirilməsi siyahısının olması zəruridir. ARCM-nin 135-ci maddəsində cinayətin motivi xəstəni iztirablardan qurtarmaq üçün yazığı gəlib pasientin xahişi ilə onu öldürməsi çox ziddiyyətli və məntiqsiz görünür. İlk öncə, buna yol vermək sanki, tibbin inkşafının qarşısını almaq xarakteri daşıyır. Digər tərəfdən ağır sağalmayan xəstəliyə düçar olan xəstələri iztirablardan qurtarmaq üçün ağrıkəsici və sakitləşdirici tibbi preparatlardan istifadə etmək, xəstənin vəziyyətini yaxşılaşdırmaq üçün konsilium keçirib tibbi- psixoloji tədbirlər görmək mümkündür. Eyni zamanda bu cinayətin harada törədilməsinin də şərhə ehtiyacı vardır.

Ən əsası evtanaziya dini, milli və mənəvi dəyərlərimizə ziddir. Qanunda buna yaşıl işıq yandırmaq, yüngülləşdirici amil kimi sanmaq, icazə vermək və haradasa leqallaşdırmaq yol verilməzdir. Bu maddəni ciddi şəkildə dəqiqləşdirməmək, imkanlı şəxslərin əmlakına sahib olmaq və ya intiqam almaq üçün xəstənin şəfqətli ölümə razılıq verməsi və ölüm aktının icrasının cinayət məsuliyyətinə səbəb olmamasını təsəvvür etdikdə, çox acı mənzərə ilə qarşılaşırıq.

Əlbəttə evtanaziyanı dini nöqteyi nəzərdən araşdırmaq zəruridir. Dini baxımdan, xüsusən İslam dini çərçivəsində evtanaziyaya yol verilmir. Bunun səbəbi dində intiharın qadağan olması və evitanaziyanın intihar sayılmasıdır. Əlbəttə burada evtanaziyanı qadağan edəcək başqa səbəblərin göstərilməsi də mümkündür. Fikrimcə, dini mənzərdən araşdırılma və tədqiqat predmeti olan mövzudur. Yəni İslam döyüşlərində qılınc zərbələrindən ölümcül hala düşənlərə necə davranırdılar? Bu məsələni tədqiqatçılara saxlayır və mövzunun bu sahədə çalarlarını araşdırmaçılar tərəfindən tədqiq olunacağına ümid edirik.

**Nəticə**

Aydındır ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra sosialist qanunvericiliyi, onun prinsipləri və fəaliyyət mexanizmindən imtina

edərək, iqtisadi islashatlarla yanaşı xeyli sayda hüquqi islahatlar aparmışdır. Lakin islahatların zəruriliyi qədər, xalqımızın əsrlərlə qoruyub saxladığı dini və mənəvi adət- ənənələrini də qorumaq zəruri və vacibdir.

Məhz bu səbəbə milli hüquq normalarına, adət və ənənələrimizə zidd olan hər bir qanunu ətraflı öyrənmədən qəbul etmək olmaz. Artıq bu mövzu ətrafında söz həkimlərin, hüquqşünasların, din xadimlərinin, ziyalıların və bir sözlə bütün ictimaiyyətindir.

Zira, nəticə etibarı ilə evtanaziyanın qəbulu və sonra gələcəkdə xarici ölkələrdə olduğu kimi ləğv edilib, leqallaşdırılması nəticəsində, biz xərçəng şişi xəstəliyindən də, tez yayılan güclü xəstəliklərlə (cinayətlərlə) qarşılaşmalı olacağıq.

**İstifadə olunmuş qaynaqlar:**


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Bakı, qanun nəşriyatı, 2006
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası, Bakı, 2001
3. Azərbaycan Respublikasının Cinayət məcəlləsinin kommentariyası, prof. F.Y.Səməndərovun redaktəsi ilə, müəlliflər kollektivi, Bakı, 2001
4. Hacıyev, C.N, Əliyev, R.Y, Təxirəsalınmaz tibbi yardım, Bakı, Təbib nəşriyyatı, 2000
5. Quliyev Aqşin, Hüquq ensiklopediyası, Bakı, qanun nəşriyatı, 2007


## Euthanasia and its place in the Criminal Code of the Republic of Azerbaijan

## (The source of the problem, the interpretation and application)